DÖVLƏT VERGİ XİDMƏTİ

# Aqrar emal fəaliyyəti və kənd təsərrüfatı məhsullarının istehsal sahəsi üzrə əlavə vergi təşviqləri verilmişdir

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2023-cü il tarixdən etibarən**

- **Aqrar emal fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə vergi təşviqlərinin verilməsi məqsədilə** siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş **idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalını** həyata keçirən fərdi sahibkarlar və hüquqi şəxslər
- həmin fəaliyyətdən əldə etdiyi gəlirin (mənfəətin) **50 faizi gəlir (mənfəət) vergisindən**,
- həmin fəaliyyət prosesində istifadə etdikləri əmlaka və torpağa görə **əmlak və torpaq vergilərindən**
- müvafiq siyahının təsdiq edildiyi ildən etibarən **7 il müddətinə azad edilmişlər**.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Kənd təsərrüfatı məhsullarının istehsal sahəsinin təşviqi məqsədilə**

- kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) **fiziki şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri**, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar dövlət büdcəsinin vəsaiti hesabına onlara verilən **subsidiyalar gəlir vergisindən müddətsiz**, **hüquqi şəxslərin** isə həmin fəaliyyət üzrə **satışdankənar gəlirləri** və dövlət büdcəsinin vəsaiti hesabına verilən **subsidiyalar 2023-cü il yanvarın 1-dən 1 il müddətinə mənfəət vergisindən**,
- **həmin məhsulların istehsalı ilə məşğul olan** (o cümlədən, sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan **hüquqi və fiziki şəxslərin** bu sahə üzrə **dividend gəlirləri 2023-cü il yanvarın 1-dən etibarən 1 il müddətinə gəlir vergisindən** azad edilmişdir.

**BAKI — 2023**